# KOMMUNİKATİV STRATEGİYADA MONOLOJİ NİTQİN LİNQVOPSİXOLOJİ ASPEKTLƏRİ

**Gülöyşə Əhmədzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Müasir Azərbaycan dili kafedrasının müəllimi*
*http: //ORCID.org./0000-0003-4190-4017*
*gulu010894@gmail.com*

**Xülasə / Introduction**

Nəsr mətnlərində monoloji nitqin əsas və başlıca xarakterik xüsusiyyətləri onunla səciyyələnir ki, o, burada (mətndə) hər hansı bir müəyyən bədii ideya, fikir, məsələ, problem, məlumat, informasiya, xatirə və s. bir nəfərin ardıcıl, rabitəli, geniş və ya qısa nitqi kimi özünü təzahür etdirir. Monoloji nitqin bədii əsərlərdə bir obrazın, bir personajın, bir surətin öz-özünə danışığı kimi nəsr mətnlərinin qurulma mexanizmlərində aktiv iştirak etmək gücünə malikdir. Monoloji nitq fərdi olmaqla yanaşı, eyni zamanda ictimai və bəşəri xarakter daşımaqla onun bütün struktur-konstruksiyasında, ideya, mövzu mündəricəsinin bütün komponentlərində insan, cəmiyyət, təbiət problemləri dayanır, obyektiv və subyektiv hadisələr təfəkkür süzgəcindən keçərək bədii şəkildə reallaşdırılır. Monoloji nitqdə fasilə, surət, ahəng, ton xüsusi rol oynamaqla müxtəlif və rəngarəng cümlə tiplərinin köməyi sayəsində gerçəkləşdirilir. Monoloqlar mətnin kommunikativ semantiк-struktur bir həlqəsidir və müəyyən kompozisiyaya malik olur ki, məqalədə onların belə xüsusiyyətlərindən danışılır.
**Açar sözlər**: nəsr mətni və monoloji nitq, mətnyaradıcı faktor kimi, makromonoloq və mikromonoloq, xarakterik keyfiyyətlər.

# LINGUISTIC-PSYCHOLOGICAL ASPECTS OF MONOLOGUES IN COMMUNICATIVE STRATEGY

**Guloysha Ahmadzadeh**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The main and specific characteristic features of monologues in prose texts are characterized by the fact that here (in the text) any specific artistic idea, issue,

problem, information, recollection, etc. manifests itself as a consistent, coherent, long or short speech of one person. Monological speech has the power to actively participate in the mechanisms of constructing prose texts, such as the self-talk of an image, a character, or a picture in artistic works. In addition to being individual, the monologue has a social and human nature in its entire structure and construction, as well as in all components of the content of ideas and topics, in the problems of man, society, and nature and here objective and subjective events are realized artistically by passing through the filter of thinking. In monologues, pause, pace, harmony, and tone play a special role and are realized with the help of different and colourful types of sentences. Monologues are communicative semantic-structural links of the text and have a certain composition, that is discussed in the article.

**Key words**: prose text and monologic speech, as a text-creating factor, macro monologue and micro monologue, characteristic qualities.

## ЛИНГВИСТИЧЕСКИЕ АСПЕКТЫ МОНОЛОГИЧЕСКОЙ РЕЧИ В КОММУНИКАТИВНОЙ СТРАТЕГИИ

**Гюлойша Ахмедзаде**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Основные и важные характерные особенности монологической речи в прозаических текстах характеризуются тем, что здесь (в тексте) проявляется какая-либо конкретная художественная мысль, идея, вопрос, проблема, информация, воспоминание и т. д. проявляется как связная, длинная или короткая речь одного человека. Монологическая речь обладает способностью активно участвовать в механизмах построения прозаических текстов, таких как самопроговаривание образа, персонажа, картины в художественных произведениях. Помимо индивидуальности, монологическая речь имеет социально-человеческую природу, во всей своей структуре и построении, во всех компонентах содержания идей и тем стоят проблемы человека, общества и природы, объективные и субъективные явления реализуются художественно, проходя через фильтр мышления. В монологической речи пауза, копия, гармония, тон играют особую роль и реализуются с помощью разнообразных и красочных типов предложений. Монологи представляют собой коммуникативное

семантико-структурное звено текста и имеют определенную композицию, о которой говорится в статье.

**Ключевые слова**: прозаический текст и монологическая речь, как текстообразующий фактор, макромонолог и микромонолог, характеристические качества.

## Giriş / Introduction

Bədii əsərlərdəki nitqin müəyyən növünü monoloqlar bildirir və monoloq sözünün mənası latınca "mono" – bir, "loqos" – danışıq deməkdir, yəni bir nəfərin danışığı əsasında qurulan nitq növü anlamı kəsb edir. Bədii əsərlərdə monoloji nitq obraz və personajların daxili aləmini, təbiət və cəmiyyət hadisələrinin ən mühüm cəhətlərini əks etdirməyə xidmət göstərmək iqtidarına malik olur. Yazıçı ədəbi qəhrəmanın mənfi və müsbət cəhətlərini monoloqlar vasitəsilə təmtəraqlı və müfəssəl şəkildə verə bilir. Nəsr əsərlərində söz sənətkarı daha çox nəqletmə və təsviri monoloq formalarına üstünlük verərək burada sadə və mürəkkəb cümlə tiplərinin müxtəlif struktur-semantik növlərindən bacarıqla faydalanmışlar.

**Nəsr mətnlərinin monoloji nitqində hissi-emosional çalarlıqlar**.

Nəsr mətnlərində nəqletmə monoloq forması ilə təsviri monoloq şəkli əksər məqamlarda bir-birini tamamlayan, bir-birinə güclü semantik əlaqələrlə bağlanır. Məhz buna görə də hər iki monoloji formada psixoloji məqamlar mühüm rol oynayaraq, vəhdət təşkil edir. Q.Məhərrəmli doğru olaraq yazır: "Təsvirlə müşayiət edilən mətnin semantikasının başa düşülməsi bəzən oradakı daxili gərginliyin dərəcəsindən asılı olur. Mətnin mənasını başa düşmək üçün bu gərginliyi araşdırmaq vacibdir, çünki psixoloji gərginlik bütün mətnlərdə eyni ölçüdə olmur. Bu mənada, gərginliyin səviyyəsinə görə psixoloji mətnləri belə qruplaşdırmaq olar: a) sakit psixoloji mətnlər; b) gərgin psixoloji mətnlər" [Məhərrəmli, 2002:199]. Tədqiqatçının bu təsnifini fikrimizcə, nəsr mətnlərini formalaşdıran linqvistik vasitə kimi monoloji nitqə də şamil etmək olar ki, bu bölgü əsasında monoloji nitqin psixoloji cəhətlərinə diqqət yetirək.

1) Sakit psixoloji monoloji nitq. Bu tipli monoloqlarda nəqletmə xüsusiyyəti güclü olur, psixoloji gərginlik öz sakit tərzi ilə seçilir, əksər məqamlarda funksional nəqli cümlə tipini əhatə edir. Məs: *Havanı yenə barıt qoxusu almışdı. Bu qoxu getdikcə kəsifləşir, bütün ölkəni bürüyürdü. Xalq qara qan axan ürək yarasını sağaltmaq üçün öcünü – intiqamını almağa tələsirdi,*

*düşmənə qəzəb və nifrəti baruta, oda, alova çevirib onun üstünə yandırmaq, püskürtmək istəyirdi* [Güney, 2009:31].

Yazıçının təhkiyə nitqindən verdiyimiz bu monoloji nitq aktında nəqletmə təsviri oxucunun gözləri qarşısında müharibə mənzərəsi yaradır. Burada təsvirin çaları sakit axardadır. Bir abzas çərçivəsindəki bu monoloji nitqin birinci cümləsi sadə geniş konstruksiya şəklində, ikincisi tabesiz mürəkkəb cümlənin ardıcılzamanlılıq məna əlaqəsi əsasında, üçüncüsü məqsəd budaq cümləsi modelində qurulmaqla xüsusi nominativlik bildirir və müharibə səhnəsinin assosiativ başa düşülməsini inikas etdirir. Sonuncu tabeli mürəkkəb cümlədə əlavə üzv də iştirak etmişdir ki, bu da izahedici funksiya daşıyaraq sintaktik vahidin hər formasında, həm də məzmununda aydın şəkildə sezilir. Əlaqələndirici vəzifənin yerinə yetirilməsi monoloji nitqdə intonasiyanın üzərinə düşmüş, konstruksiyalar bir-birinə möhkəm məna əlaqəsi ilə bağlanmış və müharibə anlayışı implisist şəkildə konseptuallaşdırılmışdır. 3 sintaktik vahid əsasında qurulmuş həmin monoloji nitq kiçik həcmə malik olub "hər biri müəyyən məzmun daşıyaraq həmin situasiyada kommunikativ vəzifə yerinə yetirir. Bu isə cümlələrin özünəməxsus informasiya strukturlarına malik olmasını ifadə edir" [Əliyeva, 2021:69].

Müşahidələrimiz göstərir ki, sakit psixoloji çalarlı monoloji nitq aktları həm də təbiət təsvirlərini vermək üçün də yazıçının təhkiyəsində ən işlək formalardan olub, söz sənətkarımızın tez-tez və məqamı gəldikcə müraciət etdikləri şəkillərdəndir. Məs.: *Səhər tezdən yağan yağış küçələrdə artıq gölməçələr yaratmışdı. Sakit havada ağaclara lal-dinməz dayanmış, sanki sükuta qərq olmuş və bu sükutu quşların civiltili səsləri pozur, onları da yuxudan ayıltmağa çalışırdılar. Belə havada iqtisadçı küçədə, parkda gəzməyi yox, saatlarla pəncərədən baxıb xəyala dalmağı xoşlayırdı* [Kazımov, 2002:11].

Yazıçının təhkiyəsi əsasında formalaşdırılmış bu monoloji nitq aktında sadə geniş modelli cümlələrin hər biri bir-birinə semantik cəhətdən möhkəm birləşmiş şəkildədir və bu proses cümlələrdəki informasiyanın zaman və məkan uyğunluğunu – hadisələrin səbəb-nəticə eyniliyinin həlledici olması ilə səciyyələnir və mikromonoloqun semantik sərhədləri oradakı temanın sərhədləri ilə üst-üstə düşür. Tema və rema əvəzlənməsi (aktual üzvlənmə) mikro-monoloqun semantikasının öyrənilməsində böyük rol oynamaqla tema cümlələr arasında semantik bağlılığı təmin etmiş, çünki bu cümlədə qeyri-müəyyən olan növbəti cümlədə qeyri-müəyyən olan növbəti cümlədə müəyyənləşmişdir ki, bu da müəyyənləşən informasiyanın remasını yaratmışdır. Mikromonoloqdakı

tema-rema əvəzlənməsi demək olar ki, bir sadə, iki mürəkkəb modelə malik cümlələrin semantik bağlılığını təmin etmiş, monoloji nitq sakit çalarda təqdim edilmişdir.

2) Gərgin psixoloji çalarlı monoloji nitq. Bu çalardan olan mikro və makro monoloji nitq aktlarına nəsr əsərlərinin bütün sıralarında rast gəlmək olur. Bunlar bəzən elə qurulur ki, dioloji nitqə daxil olan sintaktik konstruksiyalar da monoloji nitqin içərisinə daxil edilməklə onun içərisində əridilir. Belə əritmə üsulu psixoloji gərginliyin çalarlıq dərəcəsini daha da kəskinləşdirirsə də, nitq öz sakit axarı, nəqli təsviri yolu ilə seçilir, sual-nida qovuşuq sintaktik göstəriciləri nitq aktının kəskinliyinə şərait yaradır. Monoloji nitqlərdəki suallı-nidalı cümlələr psixoloji gərginliklə başlayır, bədii fikirləri yüksələn xətt boyunca aparır və yekunlaşdırır. Monoloqun bəzi cümlələrində psixoloji gərginlik sakit [Abdullayev, 1999:71; Abdullayev, 1977:32; Ağayeva, 1987:41], bəzilərində isə gərginliyin ən yüksək dərəcəsi özünü təzahür etdirir [Ağayeva, 1987:82; Ağayeva, 1975:101].

Gərgin psixoloji çalarlı monoloji nitq aktları daha çox bədii əsərlərdə “məktub” janrında yazılmış sevgi, məhəbbət mövzusundakı hadisələrdə əksini tapır. Məsələn, yazıçı Tahir Kazımovun “Sənsiz səninlə” povestinin demək olar ki, 80 şeirini sevgi məktubları təşkil edir ki, bunların da hamısı monoloji nitqə ən gözəl nümunələrdir: *Niyə özünü qorumadın?! Niyə çox işlətsin?! Niyə əlinə keçən hər şeyi yedin?! Nə ziyandır yemə, içmə! Qurban olum, özünə, evdəkinə və bir də mənə görə sağlamlığından muğayat ol! Sən məni özünə sevdirməyinlə həyata, yaşayışa qaytarmısan! Yaşat məni, yaşat məni, heç olmasa özün yaşayana qədər yaşat məni! Ey mənim əziz, mehriban, hərəkətlərinin kobudluğu ilə də olsa yaşayışım, həyatın şirinliyini mənə duyduran müəllimim, sən mənə doğmadan doğma, əzizdən də əziz bir insansan. Özünü qoru* [Kazımov, 2002:34].

Bu monoloji nitq aktında intensiv şəkildə işlənən xitablar, anaforik və epiforik təkrarlar, sual məzmunlu əvəzliklər, sual məzmununun əmr və nida ilə qovuşması, yalvarış və təkid çalarlı psixoloji gərginliyin dərəcəsini qüvvətləndirmə linqvistik göstəricilərdən olub, sintaktik konstruksiyaların bir-birinə güclü semantik bağlılığı zəminində yaranmış və oxucunu da gərgin psixoloji duruma salmaq iqtidarındadır. Bu monoloji nitq də psixoloji gərginliyin təsiri göstərdiyimiz linqvistik vasitələrlə reallaşdırılmaqla bərabər daha dərin emosional tutumu ilə də seçilir. Məhz buna görə də əksər tədqiqatlarda qeyd edilir ki, psixolinqvistik monoloji nitq aktları hər şeydən

öncə, obyektiv aləmin və insanın ancaq məntiqi dərketməsinin adi – normal səviyyə ilə təzahürü deyil, hisslərin, arzu və nisgilin, kədər və sevincin və s. adilik səviyyələrindən aşıb-daşdığı, emosional dalğalanma ilə müşahidə olunan çılğınlığın dərəcə və əks olunması durur [Bəyzadə, 1999:27; Bəşirova, 1997:108]. Bu o deməkdir ki, kommunikativ strategiyada situasiyadan asılı olaraq sintaksisin daşıdığı semantikanın nüvəsini psixoloji aktın üstünlük təşkil etdiyi momentlərin ifadəçisi olan psixoloji monoloqlar da mühüm yerlərdən birini tutur.

Monoloji nitq eyni zamanda nəsr mətnlərinin canlı həyatı olmaqla bərabər, mətnin özünün də tipinin təyin edilməsində də rol oynamır və bu da onun sintaktik-semantik quruluşu ilə müəyyənləşdirilir. Psixologizmlərlə zəngin olan nəsr mətnlərinin struktur-semantik nüvəsi də təbii ki, kəskin psixoloji monoloji nitq aktları ilə müşayiət olunur və oxucunun hiss və düşüncələrini də təlatümə, ehtizaza yetirmək gücündə olur. Məs: "Bil, artıq həyatda nə varsa, sən qarışıq hamısına nifrət edirəm, hamısına, hamısına! Həyatdan, yaşayışdan, sənsizlikdən bezmişəm, bezmişəm... Heyf ki, başqa yüngül xasiyyətli, əxlaqsız qadınlar kimi həyatda xoş gün görmədim... Səninlə olanda körpəlikdən yetkinlik illərinə, sənə rast gəldiyim günə kimi çəkdiyim işgəncələri unutmaq istəyirdim. Amma nə səninlə olmaqdan, nə də anbaan, günbəgün təkrar olunan mənəvi işgəncələrdən xilas ola bilmədim. Bu da bir mənəvi məhkumluqdur. Məhkum kimi hərə bir cəza növü çəkir. Mən taleyimin sənsizlik məhkumluğunun cəzasını çəkirəm, sənsizliyin!".. [Kazımov, 2002:265].

Monoloji nitqin başlanğıcı "bil" əmr, təkid mənası bildirən sintaktik göstərici ilə başlayır və həmin məna çalarının monoloji nitqin başdan tutmuş sona kimi bütün sintaktik bütövlərinə yayır. Kommunikativ strategiyada sintaktik – semantik aspektdən yanaşdıqda aydın şəkildə görünür ki, birinci cümlə tamamlıq budaq cümləsi, ikincisi genişləndirilmiş və sintaktik təkrarlar çıxış edən (epiforik mövqedə), üçüncüsü də genişləndirilmiş sadə cümlə modelində və təəssüf çalarlı, dördüncüsü determinant zaman zərflikli, beşincisi tabesiz mürəkkəb cümlənin ziddiyyət – qarşılaşdırma məna əlaqəsi əsasında qurulmuş cümlə modelindədir və bunların ümumilikdə semantik nüvəsinin mərkəzində ayrılıq, hicran anlayışları motivikasiya olunur, oxucuda emosional-gərgin psixoloji hisslər yaradır. Bədii əsərlərdə hadisələrin sürəti olmuş və personajların hisslərini və heyvanlarını çox vacib üstələyir və belə məqamlarda söz sənətkarı daha çox kəskin psixoloji monoloqlarda daha artıq yer verməyə çalışır, çünki bu da təbiidir, bunlarsız obrazların mənəvi-daxili dünyalarını

açmaq qeyri-mümkündür. Monoloji aktın struktur-semantik quruluşu, onun gücü gücü oxucunu inandırmaq cəhətlərindəndir. “Yeni həyat həqiqəti o zaman bədii həqiqətə çevrilir ki, oxucu obrazın hər bir hərəkətini nəinki etik, həm də psixoloji gərginlik cəhətdən əsaslandırıldığını ürəkdən hiss etsin, görsün” [Hüseynova, 2020:286-293].

Kommunikativ strategiyanın monoloji nitq aktlarında sual-əmr-nida qovuşuq sintaktik vahidlərin çevikliyi daha çox özünü göstərmək struktur-semantik komponentləri reallaşdırmaqla bərabər, kəskin psixoloji çalarlı bədii fikirlər də formalaşdırır. Məs: “Bəlkə düşünürəm ki, mən nəyə görəsə, nə üçünsə səni sevirəm?! Nə düşünürsən düşün, amma elə düşünmə! Səni sevdiyimin səbəbini bilmirəm, bilmədiyim üçün sevgim də səbəbsiz, təmənnasızdır. Yadında saxla, mən səni nəyəsə niyəsə görə sevmədim. Elə eləmə ki, uzaqdan-uzaq olan qayğılarından imtina edim... Sevdiyim adamın qayğısını duymadan məgər yaşamaq olarmı?! Nə qədər çox qayğılı olsan, o qədər də məni səmimiyyətinə inandırmış olarsan”... [Kazımov, 2002:43].

Həcmcə olduqca böyük olan bu monoloji nitqi bütöv şəkildə vermək imkan xaricindədir, çünki povestdə 10 səhifədən çox yeri əhatə edir, yalnız bir parçasını verməklə kəskin psixolinqvistik cəhətlərə diqqət yetirmək istəyirik. Obrazın daxili düşüncəsinin müəyyən məqamlarını əks etdirən bu mikro-monoloqun birinci cümləsi, “bəlkə” modal sözü ilə ifadəsini tapmış və determinant kimi funksionallaşaraq öz ehtimal, sülhə, güman çalarlarını mətnin sonuna kimi yaymışdır. Eyni zamanda birinci sintaktik vahid tamamlıq budaq cümləsi modelindədir. İkincisi təsdiq, inkar formalarında olub, tabesiz mürəkkəb cümlənin qarşılaşdırma-ziddiyyət məna əlaqəsi üzrə qurulmuş, təsdiq formasını, inkar şəklini əks etdirir. Üçüncüsü səbəb-məqsəd budaq cümləsi modelindədir, qəlib sözlər də bunu sübuta yetirir. Dördüncü və beşinci cümlələr sual-əmr məzmunludur, yeddinci kəmiyyət budaq cümləsi quruluşundadır. Yazıçı gərgin psixoloji məqamları intonasiya ladlarının və qrammatik-semantik linqvistik vasitələrin köməyi sayəsində monoloji nitq aktının sonuna kimi davam etdirməklə “ehtiraslı emosional vəziyyətlər yaratmış” [Nağıqızı, 2020:243-248], obrazın daxili aləminin açılmasına, öz sevgi və məhəbbətlərinə psixoloji yöndən xüsusi diqqət yetirmişdir.

**Nəticə / Conclusion**

Bədii mətnlərdə monoloji istiqamət üzrə kəskin və adi psixoloji çalarların öyrənilməsi aktuallığı həm psixolinqvistikanın, həm də ədəbiyyatşünaslıq elminin qarşısında duran vəzifələrlə birbaşa əlaqədardır, çünki hazırda

Azərbaycan nəzəri dilçiliyində, xüsusən onun koqnitiv aspektlərinin tədqiqi yeni inkişaf mərhələsinə qədəm qoymuş və yeni olduğuna görə kommunikativ strategiyada monoloq üzrə aparılan müşahidələr, üzə çıxarılan spesifik linqvistik xüsusiyyətlər heç də ona aid qanunauyğunluqları tam şəkildə əhatə edə bilmir. Yalnız adi və kəskin psixoloji məqamarı əks etdirən monoloji nitq aktlarının xarakterini linqvistikanın və ədəbiyyatşünaslığın verdiyi imkanlarla, müqayisəli şəkildə təhlili ona məxsus cəhətləri bütün dolğunluğu ilə aça bilər.

**Ədəbiyyat / References**


1. Abdullayev, Ə. (1999). Mətni anlama modelləri. – Bakı: Səda. − 465 s.
2. Abdullayev, N. (1977). Ədəbi tələffüz və intonasiyanın mənimsədil- məsində texniki vasitələrdən istifadə. – Bakı: Maarif. −112 s.
3. Ağayeva, F. (1987). Azərbaycan danışıq dili. – Bakı: Maarif. − 170 s.
4. Ağayeva, F. (1987). Danışıq dilində leksik və sintaktik vahidlər. – Bakı: Maarif. − 131 s.
5. Ağayeva, F. (1975). Şifahi nitqin sintaksisi. – Bakı: Maarif. − 151 s.
6. Bəşirova, A. (1997). Azərbaycan dilində vurğu. – Bakı: ADU-nun nəşri. − 103 s.
7. Bəyzadə, Q. (1999). Mətn sintaksisinin problemlərinə bir nəzər. II cild. − Bakı: Patronat MMC. − 201 s.
8. Əliyeva, X.A. (2021). Mətnin kommunikativ-semantik strukturu haqqında. // "Filologiya məsələləri". − № 12. − s. 65-71.
9. Güney, F. (2009). Qara qan (roman). 2-ci hissə. – Bakı: "Apostrof" çap evi. − 456 s.
10. Hüseynova, M. (2020). Həyatı müşahidə qabiliyyətinin zənginliyi. Yazıçı yaradıcılığı ədəbi tənqid müstəvisində. – Bakı: Uniprint. − s. 286-293.
11. Kazımov, T. (2002). Sənsiz səninlə (povestlər) . – Bakı: Nurlan. – 268 s.
12. Məhərrəmli, Q.M. (2002). Televiziya dili. – Bakı: Elm. − 304 s.
13. Nağıqızı, M. (2020). Ən yeni tarixin bədii təcəssümü. Yazıçı yaradıcılığı ədəbi-tənqid müstəvisində. – Bakı: Mütərcim. − s.243-248.



**Məqalə tarixçəsi**

*Daxil olub* *06.03.2024*

*Qəbul edilib* *17.03.2024*

*Nəşrə tövsiyə edib* *Mahirə Hüseynova*

*filologiya elmləri doktoru, professor*